**Cəfərov, M**. Hər zaman ehtiramla xatırlanacaq // Respublika. - 2025. - 15 may. - **№ 99**. - S. 13.

Ana Vətən uğrunda canından keçənlərin hər biri qəhrəmanlıq, rəşadət, mərdlik nümunəsidir. Torpaq uğrunda canını fəda edən vətən övladı ölümü ilə əbədilik qazanır, şəhidlik zirvəsinə ucalır. Qusarın Cibir kəndi Vətən müharibəsində dörd, Birinci Qarabağ savaşında isə iki oğlunu şəhid verib. Hər iki Vətən savaşında qusarlı igidlər əsl qəhrəmanlıq dastanı yazıblar.

44 gün davam edən Vətən müharibəsində Azərbaycan öz dədə-baba torpaqlarını mənfur düşməndən xilas etdi. Ali Baş Komandanın qətiyyətli addımlarını, müdrik siyasətini dəstəkləyən xalqımız 30 ilə yaxın bir dövr ərzində davam edən amansız erməni işğalına qarşı aparılan müharibədə öz rəhbərinin ətrafında yumruq kimi birləşdi, mərd oğullarımız könüllü olaraq Vətənin müdafiəsinə qalxdılar.

Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızdan biri də "Rembo" ləqəbli Rafik Bəyverdiyevdir. 1998-ci il iyunun 1-də Qusar rayonu Cibir kəndində anadan olub. 2005-2016-cı illərdə Qusar rayonunun Cibir kənd orta məktəbində təhsil alıb.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün Vətən müharibəsi başlananda, Rafik Bəyverdiyev Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edərək müharibəyə yollanıb. Rafik döyüş yoldaşları arasında çox böyük hörmət qazanıb. Mərd, qorxmaz olduğuna görə döyüş yoldaşları ona "Rembo" ləqəbini veriblər. Düşmənin qurduğu pusquda yüzlərlə igidimizi xilas edib.

O, Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli, Cəbrayıl, Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

Rafik 2020-ci il oktyabrın 20-də Xocavəndin Düdüklü kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub. Qusar rayonunda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığına və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhid məzarları bu gün hər birimiz üçün and yerinə çevrilib. Şəhidlik zirvəsinə ucalan Rafik kimi igid oğullarla gələcək nəsillər də qürur duyacaq, onlar daim ehtiramla xatırlanacaqlar.